D İ L Ç İ L İ K   A R A Ş D I R M A L A R I

Sentyabr-Dekabr/2021 № 2

UOT: 81.23

GÜLNAR ƏSGƏROVA*

# PUNKTUASİYANIN TARİXİ

**XÜLASƏ**

Məqalədə durğu işarələrinin yazıda tətbiqi tarixinə nəzər salınır, durğu işarələrinin funksional-semantik tipologiyası haqqında məlumat verilir, punktuasiyanın tətbiqi məsələlərinin öyrənilməsinə subyektiv münasibət bildirilir**.** Durğu işarələrinin antik yunan dilçiliyində tətbiq olunduğunu, qədim türk yazılı abidələrində, o cümlədən Orxon-Yenisey yazılarında nöqtə işarəsinin tətbiqi haqqında məlumat verilir. Məqalədə qeyd olunur ki, durğu işarələrindən ilk dəfə antik yunan dönəmində, İsgəndəriyyə kitabxanasının sahibi Aristofan qədim yunan yazıçı və şairlərinin əsərlərini nəşrə hazırlayarkən istifadə etmişdir. Araşdırmada punktuasiyanın yaranmasının əsas səbəbləri kimi vaxtilə antik yunan dönəmində ritorikanın inkişafı, kitab çapının yaranması, dini kitabların nəşri göstərilir.

***Açar sözlər:*** *punktuasiya, durğu işarələri, dünya dilçiliyi, yazı, dilin qrafiki sistemi, orfoqrafiya.*

**Giriş:** Durğu işarələrinin işlənməsi tətbiqi dilçiliyin əsas sahələrindən biridir. Durğu işarələri ümumilikdə dilin qrafika sisteminə daxildir. Qrafikaya həm əlifba, yəni hərflər, həm də durğu işarələri, yəni punktuasiya aiddir. Ümumiyyətlə, dilin yazı sisteminə diaktrik işarələr, qrafiki işarələr, orfoqrafik işarələr və hərflər daxildir. Əslində, dildə işlənən qrafemlər ümumilikdə semiotik xarakter daşıyır və yazılı mətnin intonasiya və semantik cəhətdən dərk olunması üçün müstəsna əhəmiyyət kəsb edir.

Durğu işarələri, diaktrik işarələr, əlifba hər bir dilin ümumi punktuasiya sistemini ehtiva edir. Punktuasiyanın tarixinin öyrənilməsi yazının tarixinin öyrənilməsi, orfoqrafiyanın tarixinin öyrənilməsi ilə sıx bağlıdır.

Hər bir işarənin vaxtilə simvolik mahiyyəti olmuşdur. Tarixən durğu işarələrinin yaranmasına, birinci növbədə, nitq mədəniyyəti məsələləri və kitab çapı səbəb olmuşdur. Adətən, durğu işarələri dilçilikdə iki cür təsnif edilir: ayırıcı durğu işarələri və fərqləndirici durğu işarələri.

Tarixən durğu işarələrinin yaranması bir çox səbəblərlə bağlı olmuşdur. Belə ki, ən qədim yazılı abidələrdə durğu işarələri yox dərəcəsindədir. Çünki yazının ilkin mərhələsində durğu işarələrinə ehtiyac duyulmurdu. Ancaq sonradan dünyada yazılı nitqlə bağlı, ilkin qrammatikalar, xüsusilə, sintaksis məsələləri aktuallaşdı. Digər tərəfdən, durğu işarələrinə zərurət mətnin düzgün oxunması ilə də bağlıdır. O zaman durğu işarələrinin işlənməsinə tarixi zərurət yarandı.

Müasir durğu işarələrin tarixi qədim yunan dilçiliyinə gedib çıxır. Vaxtilə eradan əvvəl III əsrdə yaşamış antik yunan filoloqu Aristofan ilk dəfə olaraq durğu işarələrinin funksiyalarından bəhs etmişdir.

Orta əsrlərdə kitab çapının yaranması ilə bağlı olaraq durğu işarələri geniş tətbiq olunmağa başlandı. Xüsusilə, dini kitabların nəşrində durğu işarələrinin tətbiqi aktuallaşdı. Digər tərəfdən, durğu işarələrinin yaranma səbəblərindən biri də insanlarda yazı mədəniyyətinin təkmilləşməsi, orfoqrafiya qaydalarının inkişaf etdirilməsi ilə bağlı olmuşdur. Ən qədim durğu işarələrindən biri nöqtə işarəsidir. Məsələn, qədim türk yazılı abidələrində əsasən nöqtədən və qoşa nöqtədən istifadə edilmişdir. Antik yunan dövründə də əvvəllər durğu işarələri istifadə edilməmişdir, yazıda sözlər bir-birinə bitişik şəkildə yazılmışdır. Ancaq sonradan qədim yunan yazılarında ilk dəfə olaraq nöqtədən istifadə edilmişdir.

Sonralar ilkin orta əsrlərdə Avropada xristianlığın yayılması ilə bağlı olaraq dini kitablar nəşr olunmağa başladı. Həmin dini kitablar zərif şəkildə nəşr olunduğuna görə artıq bu yazılarda durğu işarələri tətbiq olunmuşdu.

Punktuasiyanın öyrənilməsi yazı tarixinin öyrənilməsi deməkdir. Yazıda ilk durğu işarələri ayırıcı işarələr olmuşdur. Məsələn, Orxon - Yenisey yazılarında işlənən yeganə durğu işarəsi nöqtə işarəsidir ki, onun da funksiyası sözləri və cümlələri bir-birindən ayırmaq olmuşdur. Maraqlıdır ki, müasir yazıdan fərqli olaraq daş

* AMEA Nəsimi adına Dilçilik İnstitutunun dissertantı, Bakı Mühəndislik Universiteti, guasgarova@beu.edu.az

kitabələr olan Orxon-Yenisey yazılarında qoşa nöqtə, üç nöqtə və bir nöqtə mətnin həm əvvəlində, həm ortasında və həm də sonunda qoyulmuşdur. Köktürk əlifbası ilə yazılmış olan Orxon-Yenisey yazılı abidələrində sözlər arasında yeganə durğu işarəsi olan nöqtələnmə hadisəsini ilk dəfə bu yazılı abidələri deşifrə edən Vilhelm Tomsen tədqiq etməyə cəhd etmişdir. Ancaq o, yazılı abidələrdə tək-tək sözlər arasında qoşa nöqtə qoyuluşunun mahiyyətini öyrənə bilmişdirsə, iki, üç və daha çox sözün bir yerdə yazılmasının və birlikdə nöqtələnməsinin səbəbini söyləyə bilməmişdir (Şükürlü: 2008, s.152).

Yazı meydana gələnə qədər minilliklər boyu insanlar arasında yalnız şifahi ünsiyyət mövcud olmuşdur. İlk əlifba yarandıqdan sonra danışıq səsləri yazıda hərflər vasitəsilə işarə olunmağa başlandı. Bu səslərin köməyi ilə sözlər, cümlələr yazıldı. Beləliklə, yazılı nitq meydana gəldi. Dil tarixçilərinin əksəriyyəti bu qənaətdədirlər ki, indiki dövrdə istifadə etdiyimiz durğu işarələri vaxtilə yazılı mətnin ucadan və düzgün intonasiya ilə oxunması üçün yaradılmışdır.

E.ə. 5-ci yüzillikdə yunan yazarları aktyorların oxu zamanı fasilə etmələri üçün bəzi simvollardan istifadə edirdilər və Bizanslı Aristofan (e.ə. 257–185-ci illər) bunun əsasında formal punktuasiya sistemini yaratmışdı. O eyni zamanda punktuasiyaya vurğunu da əlavə etmişdi. Sanskrit, ərəb, Koreya, çin, yapon və s. kimi qədim yazılı dil formalarında durğu işarələrindən az istifadə edilirdi və ya heç edilmirdi. Lakin şifahi nitq təkcə danışıq səslərindən ibarət deyil.

Doğrudur, insan danışarkən fikrini, ilk növbədə, sözlərlə, cümlələrlə ifadə edir. Bununla belə, intonasiyanın, vurğunun, pauzanın və s. əhəmiyyəti də az deyil. Yazıda bütün bu köməkçi funksiyaları xüsusi işarələr – durğu işarələri yerinə yetirir. Punktuasiya özünün müasir forması ilə daha çox İntibah dövrünə, xüsusilə italyan alimi və naşiri Aldus Manitiusa borcludur. “Bibliya”nın bir çox dillərdə nəşri də punktuasiya sisteminin təkmilləşməsinə köməyi olmuşdur. Müasir punktuasiya sistemi 19-cu yüzilliyin əvvəllərindən etibarən inkişaf etmişdir.

Antik yunan dövründə Aristofan məşhur biblioqraf və leksikoqraf olmuşdur. Aristofan dünya dilçiliyi tarixində ilk dəfə olaraq *kolonometriya* adlanan punktuasiyanın nəzəri əsaslarından bəhs etmişdir. Bizanslı Aristofan kimi tanınan antik filoloq müxtəlif sahələr üzrə tədqiqatlar aparmışdır. Aristofanın bu fikirləri bədii mətndə, xüsusilə, şeir dilində, yəni lirikada şeir sətirlərini bir-birindən ayrılmasını göstərmək ehtiyacından yaranmışdır. Əslində, bizanslı Aristofan kitabxana müdiri olmuşdur. O, İsgəndəriyyə kitabxanasında çalışmışdır. Aristofan antik yunan ədəbiyyatının klassik nümunələrini nəşrə hazırlayarkən, nöqtə və vurğu işarələrindən istifadə etmişdir. Məhz bu tarix yazıda ilk durğu işarələrinin tətbiqi sayılır. Aristofan Evripidin, Esxilin, Homerin əsərlərini nəşrə hazırlayarkən durğu işarələri olan nöqtə və vurğu işarələrindən istifadə etmişdir.

Boduen de Kurtene qeyd edir ki, Avropada durğu işarələrinin tətbiqi yunan mənşəli Aleksandriya, yəni İsgəndəriyyə qrammatikalarından qaynaqlanmışdır. Xüsusilə, XV əsrdə İtaliyada venesiyalı Manutius qardaşlarının nəşriyyatı fəaliyyətə başladıqdan sonra çap olunan kitablarda durğu işarələrindən istifadə olunmuşdur. Qədim hind yazılarında, yəni sanskritdə, ümumiyyətlə, indiki dövrdə istifadə olunan durğu işarələri olmamışdır. Demək olar ki, mətndə sözlər bir birinə yapışıq, birləşik şəkildə verilirdi. Hətta orta əsrlərdə dini kitablarda da, o cümlədən kilsə yazılarında da sözlər bitişik və durğu işarəsiz yazılmışdır (Куртенэ:1963, s.238-239).

Orta əsrlərdə Avropada durğu işarələrinin təkmilləşməsi, ilk növbədə, kitab çapı məsələləri ilə bağlıdır. Xüsusilə, dini kitabların, o cümlədən “İncil”in nəşr olunması yeni durğu işarələrinin tətbiqini zəruriləşdirmiş oldu. Rusiyda durğu işarələrinin inkişaf etdirilməsi V.Lomonosovun adı ilə bağlıdır. V.Lomonosov 1755-ci ildə yazdığı “Rus qrammatikası” adlı əsərində və Y.K. Qrot 1885-ci idlə yazdığı “Rus imlası” əsərində rus orfoqrafiyasında ilk dəfə olaraq durğu işarələrin tətbiqi prinsiplərindən bəhs etmişlər.

Orta əsrlərdə Qərbi Avropada dini kitabların, xüsusilə “Bibliya”nın nəşri durğu işarələrinin tətbiqinə olan zəruriliyi artırmış oldu. VI əsrin sonları, VII əsrin əvvəllərində yaşayan arxiyepiskop İsidor Sevilski İspaniyada durğu işarələrini ilk dəfə tətbiq etmişdir. VII əsrdə ispan yepiskopu İsidor Sevilski vaxtilə antik yunan dövründə Aristofanın tətbiq etdiyi durğu işarələrini təkmilləşdirdi. İsidor Sevilski ilk də-

fə olaraq punktuasiya ilə fikrin inteqrasiyasını həyata keçirdi. Belə ki, ona qədər əgər durğu işarələri ancaq yazıda fasiləni, pauzanı bildirirdisə, İsidor nöqtəni cümlənin sonuna qoymaqla punktuasiyanın fikrin bitkinliyini bildirməyə də xidmət etdiyini göstərdi. Bu, yazı qaydalarında yeni mərhələnin başlanğıcını qoydu və durğu işarələrinnin yazılı mətndə funksional-semantik vəzifə daşıdığını aktuallaşdırdı.

Müasir dünya xalqlarının yazılarında, imlalarında durğu işarələrinin fərqli işlənmə funksiyaları mövcuddur. Məsələn, ispan yazısında cümlənin həm əvvəlində, həm də axırında sual və nida işarələri qoyulur. Burada məqsəd oxucunu cümlənin intonasiyasına hazırlamaqdır. Burada bir incəlik də ondan ibarətdir ki, Azərbaycan yazısından fərqli olaraq sual və nida işarələri ispan dilinin yazısında tərsinə qoyulur.

Təsadüfi deyil ki, Bakıda 1926-cı ildə keçirilən I Türkoloji Qurultayın əsas müzakirə predmetlərindən biri də imla qaydaları olmuşdur. Çünki həmin dönəmdə Azərbaycanda əlifba islahatına hazırlıq gedirdi. Hətta tanınmış türkoloq Bəkir Çobanzadə əlifba layihəsini həyata keçirmək üçün Azərbaycan hökumətinin dəvəti ilə Krımdan Bakıya dəvət olunmuşdu. O zamanlar ərəb əlifbasından latın əlifbasına keçid dövrü idi. Buna görə də I Türkoloji Qurultayda əsas müzakirə edilən məsələlərdən biri məhz imla məsələləri idi. İmla məsələsində də aparıcı mövzulardan biri orfoqrafiya qaydaları və durğu işarələridir. O zaman tanınmış Azərbaycan dilçi-alimi Fərhad Ağazadə I Türkoloji Qurultayda "Türk dilində imla qaydaları" mövzusunda məruzə ilə çıxış etmişdi. Həmin məruzədə qeyd olunan əsas məsələlərdən biri məhz durğu işarələri mövzusu idi. Fərhad Ağazadə bu məruzədə o vaxta qədər olan qrammatika kitablarında ancaq ərəb sözlərinin düzgün yazılışı ilə bağlı yazı qaydalarının olduğunu göstərir. Bu da təbii idi. Çünki Azərbaycanda əsrlər boyu ərəb əlifbasına əsaslanan əski əlifbadan istifadə edilirdi. Ərəb qrafikası isə türk dilinin fonoloji sistemini tam ehtiva edə bilmirdi. Latın qrafikası isə türk dillərinin fonoloji xüsusiyyətlərini əks etdirməyə qabil olan əlifba sistemidir.

**Nəticə:** Fərhad Ağazadə yazırdı ki, türk dilinin düzgün yazılış qaydalarını ümumiləşdirməyə cəhd göstərərkən biz, ilk növbədə, hansı qaydalara üstünlük verəcəyimizi müəyyənləşdirməliyik. Fərhad Ağazadə haqlı olaraq, ərəb sözlərinin yazılışında tətbiq olunan hərəkə, tənvin, təşdid işarələrinin türk sözləri üçün yararsız olduğunu bildirirdi. Fərhad Ağazadə türk dillərinin orfoqrafiyasının fonetik prinsipə əsaslanmalı olduğunu xüsusi vurğulayırdı. O, düzgün yazılış qaydalarına verilən şərtlər içərisində durğu işarələrinin tətbiqini mühüm sayırdı. Belə ki, F.Ağazadə latın mənşəli əlifbaya keçidin qızğın tərəfdarlarından biri idi. O, latın qrafikalı əlifbanın bir çox üstün cəhətlərini qeyd edirdi ki, bunlardan biri də latın qrafikalı yazıda durğu işarələrinin qoyulması idi. Məsələn, o, yazırdı ki, hamıya məlumdur ki, düzgün yazıda hər hansı bir nöqtə əhəmiyyətli rol oynayır. O da məlumdur ki, bu və ya digər hərfin üzərində qoyulan müxtəlif işarələr külli miqdarda yanlışlıq və anlaşılmazlıq yaradır. Fərhad Ağazadə bildirirdi ki, latın qrafikalı yeni türk əlifbasının üstün cəhətlərindən biri də bu əlifbada məhz durğu işarələrinin tətbiqinin ərəb qrafikalı əlifbadan üstün cəhətlərə malik olmasıdır. O qeyd edirdi ki, durğu işarələri ərəb əlifbasında da tətbiq edilsə də, onların yeri düzgün müəyyənləşdirilməyib, halbuki bu işarələr düzgün yazı üçün nəhəng əhəmiyyətə malidkdir. Məsələn, "Yar gəlsin". Əgər bu sözlər arasında vergül işarəsi qoysaq, cümlənin mənası tamamilə dəyişər (Azərbaycan dilçiliyi müntəxəbatı:2013, s.180- 186).

İndiyə qədər Azərbaycan dilçiliyində durğu işarələri ilə bağlı müxtəlif səviyyələri araşdırmalar aparılsa da, durğu işarələrinin nəzəri aspektlərinə, demək olar ki, toxunulmamışdır. Halbuki müasir dünya dilçiliyində son dövrlərdə aparılan araşdırmalarda mətn dilçiliyinə maraq artmaqdadır. Yazılı nitqdə mətni yaradan əsas vasitələrdən biri də məhz durğu işarələridir. Onda görə də müasir dilçilikdə punktuasiyaya mətnyaradıcı vasitələrdən biri kimi yanaşılır və durğu işarələrinin yazılı mətnlərdə funksional-semantik əhəmiyyəti çox böyükdür.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilçiliyi müntəxəbatı (3 cilddə) / Tərtib edən T.Quliyev. Bakı: Abıs Alarco, 2013, c.1, 309 s.
2. Şükürlü, E. Köktürk ədəbi dilinin imlası. Bakı: Mütərcim, 2011, 208 s.
3. Кобрина, Н. А., Малаховский Л. В. Английская пунктуация. М.: Издательство литературы на иностранных языках, 1961. - 119с.
4. Амирова, Т.А. К истории и теории графемики. М.: Наука, 1977. - 191 с.
5. Аргументы. Перевод Д.О. Торшилова // Античная мифография: Мифы и единство действия. СПб: Алетейя, 1999, с.300-305.
6. Азарова, Н.Д. Лингвопоэтические, семиотические и коммуникативные основы английской пунктуации: На материале современной англоязычной художественной прозы. / Автореф. дис.канд.филол. наук, 2001.
7. Барулина, Н.Н. Принципы современной пунктуации с учетом коммуникативного аспекта языка. Автореф. дис.канд.филол. наук. Л., 1982.
8. Добиаш-Рождественская , О. А. История письма в средние века. М.: Книга, 1987. 320 с.
9. Лукотка, Ч. Развитие письма. М.: Изд-во иностр. лит. 1950. 280 с.
10. Осипов, Б.И. История русской орфографии и пунктуации. Новосибирск: Изд-во Новосиб. ун-та, 1992. 251 с.
11. Орлова, Н.М., Семеновская, С.А. Культура письменной речи: орфография и пунктуация. Саратов: 2015. 134 с.
12. Шапиро, А.Б. Современный русский язык. Пунктуация. М.: Просвещение, 1966. 296 с.
13. Тайны древних письмен. Проблемы дешифровки. М.: Прогресс, 1976. 591 с.
14. Истрин, В.А. Развитие письма. М.: АН СССР, 1961. 403 с.
15. Истрин, В.А. Возникновение и развитие письма, М.: Наука, 1965. 600 с
16. Куртенэ, Бодуэн де И.А. Избранные труды по общему языкознанию. [В 2-х томах]. Москва: Изд-во Академии наук СССР, 1963. Т.2, 391 с.
17. Иоганнес, Ф. История письма. М.: Наука, 1979. 463 с.

**Gulnar ASGAROVA**

## HISTORY OF PUNCTUATION

## SUMMARY

This article is devoted to the history of the use of punctuation in writing, provides information about the functional-semantic typology of punctuation, expresses a subjective attitude to the study of punctuation. The first punctuation marks were used in ancient Greek linguistics, and that punctuation was used in ancient Turkish written monuments, including Orkhan-Yenisei inscriptions. The article notes that punctuation was first used in ancient Greek times by Aristophanes, the owner of the Library of Alexandria, when preparing the works of ancient Greek writers and poets for publication. The main reasons for the emergence of punctuation in the study are the development of rhetoric in the ancient Greek period, the emergence of book printing, the publication of religious books.
***Keywords:*** *punctuation, world linguistics, writing, language graphics system, spelling.*

**Гюльнар АСКАРОВА**

## ИСТОРИЯ ПУНКТУАЦИИ

## РЕЗЮМЕ

В статье рассматривается история использования знаков препинания в письменной форме, приводятся сведения о функционально-семантической типологии знаков препинания, выражено субъективное отношение к изучению знаков препинания. Первые знаки препинания использовались в древнегреческой лингвистике, а знаки препинания использовались в древнетюркских письменных памятниках, в том числе в орхоно-енисейских надписях. В статье отмечается, что пунктуация впервые была использована в древнегреческие времена владельцем Александрийской библиотеки Аристофаном при подготовке к публикации произведений древнегреческих писателей и поэтов. Основными причинами появления знаков препинания в исследовании являются развитие риторики в древнегреческий период, появление книгопечатания, издание религиозных книг.
**Ключевые слова:** *пунктуация, мировая лингвистика, письмо, языковая графическая система, орфография.*